Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Qarabağ Zəfərimizin dövlətçilik tarixində və tarix dərsliklərində yeri...

## Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**44 günlük Vətən müharibəsi milli dövlətçilik tariximizdə xüsusi əhəmiyyətli yer tutur. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun qazandığı şanlı qələbə dövlətçilik taruximizə qızıl hərflərlə yazılıb. Belə demək mümkündürsə, son üç əsrdə Azərbaycan ilk dəfə idi ki, torpaqlarını işğaldan azad etməyə müyyəsər ola bildi. Əlbəttə, bu tarixi hadisə dərsliklərdə incəliyinə, hər bir detalına qədər əks olunmalıdır.**



8 noyabr Zəfər bayramıdır və iki il bundan əvvəl şanlı odumuzun qazandığı qələbənin işığında neçə-nemə tədbirlər, paradlar, konsertlər, təqdimatlar keçiriləcək. Ən böyük hadisənin adı isə əbədi olaraq şanlı ordumuzun qazandığı qələbə olacaq. Qeyd edilidyi kimi, Azərbaycanın qazandığı tarixi zəfərdən iki il keçir.

**Zəfərimiz Azərbaycan tarixi dərsliklərində necə ifadə olunur?**

Əlbəttə, 44 günlük Vətən müharibəsinin tarix dərsliklərində necə əks olunması hər zaman maraqlıdır. Tariximizin 44 günlük səhifəsi o qədər canlı, məzamunlu ifadə olunmalıdır ki, şagirdlər, gənc nəsil qəhrəmanlarımızla öyünsünlər, onların döyüş yolunu həyat amallarına çevirsinlər. Bildiyimiz qədər orta məktəblərdə "Zəfər tarixi" dərsliyi tədris olunur. Bütün bunlarla bağlı orta məktəblər üçün "Azərbaycan tarixi" dərsliklərinin həmmüəlliflərindən olan Hafiz Cabbarovla əlaqə saxladıq.

H.Cabbarov "Bakı-Xəbər"ə bildirdi ki, "Zəfər tarixi" Azərbaycan məktəblərində bu gün çox yüksək səviyyədə tədris olunur: "Bilirsiz ki, "Zəfər tarixi" dərsliyi yazılıb. Bu gün "Zəfər tarixi" dərsliyi orta məktəblərdə çox yüksək səviyyədə tədris olunur. Həmçinin də müəlliflərindən biri olmağımla qürur duyduğum IX siniflər üçün "Zəfər tarixi" dərsliyi bütün ölkə üzrə bu siniflərdə tədris olunur. Bu dərslikdə zəfərimizin tarixi, zəfərə gedən yol, xalq, dövlət və ordu birliyi, həmçinin bu zəfərin bizə ərmağan edilməsində böyük rolu olan qəhrəmanlarımız haqqında şagirdlərmizə məlumatlar verilir. Eyni zamanda ölkə başçısı cənab Ali Baş Komandan İlham Əliyevin diplomatiya sahəsində apardığı siyasət, bu yöndə dövlət başçısının uğurlu addımları, fəaliyyəti əks olunub. Bilirsiz ki, müharibə yalnız əldə silah ön cəbhədə getmir həmçinin diplomatiya, informasiya mübarizəsi kimi hissələri də var. Cənab Prezidentin bu müharibənin həqiqətləri ilə bağlı xarici KİV-lərə verdiyi müsahibələrin ən qırmızı xəttlə keçən hissəsinin, yəni düşmənin Azərbaycana qarşı təcavüzünün, eyni zamanda dinc əhaliyə qarı terrorçuluq fəaliyyətinin ifşası dərslikdə yer alıb. Bildiyiniz kimi, tarix dərslikləri, ümumiyyətlə dərsliklər müəyyən müddətdən bir çap olunur. Dünya təcrübəsində belədir. Artıq hər il dərsliklər yenilənlicə, Zəfər tariximiz, haqq işimiz, eləcə də Ermənistanın Azərbaycana təcavüzü dərsliklərdə müxtəlif səviyyələrdə əks olunur".

**"...Digər dərsliklərdə müvafiq olaraq Zəfər tarixi qürurla, iftixarla əks olunur"**

44 günlük müharibənin dərsliklərdə əks olunduğunu ifadə edən H.Cabbarov vurğuladı ki, 2020-ci ilin 27 sentyabr tarixində başlanan İkinci Qarabağ Müharibəsi və onun uğurlu nəticələri ilə yanaşı tariximizlə bağlı başqa mühüm məqamlar da dərsliyə salınıb. H.Cabbarov qeyd etdi ki, bütövlükdə, ermənilərin Çar Rusiyası tərəfindən Azərbaycan torpaqlarına köçürülməsi, onların himayə olunması, daha sonra XX yüzilliyin əvvəllərində Azərbaycan xalqına qarşı onların həyata keçirdikləri soyqırım aktları, bu mənfur siyasətləri də dərsliyimizdə yüksək səviyyədə əks olunub. "Təbii ki, biz bununla kifayətlənmirik. Bilirsiz ki, informasiya əsridir, hər dəfə yeni elmi yeniliklər baş verir, yeni informasiyalar əldə edilir. Biz nailiyyətlərin əsasında bu məsələlər, bu faktlar dərslikləri daha da zənginləşdirir. Gələcək nəşrlərdə də, Ermənistanın Azərbaycana təcavüzü, ordumuzun düşmən üzərində şanlı qələbəsi, Zəfər tariximiz dərsliklərdə əks olunacaq. Nəinki tarix dərsliklərində hətta digər dərsliklərdə də müvafiq olaraq Zəfər tarixi qürurla, iftixarla əks olunur. Həmin tədris prosesində yalnız dərsliklər önəmli deyil, digər proseslərin də əhəmiyyəti var. Bu baxımdan 27 sentyabr Anım günü və 8 noyabr Zəfər Günümüz münasibətilə ölkəmizin bütün məktəblərində anım və zəfər günlərinin qeyd olunması yüksək səviyyədə həyata keçirilir. Bu istiqamətdə şagirdlər arasında müxtəlif intellektual yarışlar, esse yazı müsabiqələri, zəfər konfransları həyata keçirilir. Uşaqlar şəhidlərimizin dəfn olunduğu müqəddəs guşələrə aparılır və burada şəhidlərimizin qəhrəmanlıqları, şücaətləri onlara təlqin edilir. Bu da uşaqların vətənpərvərlik tərbiyəsinin inkişafında, vətənpərvərlik ruhunda böyüməsində mühüm rol oynayır" - deyə H.Cabbarov vurğuladı.

Qeyd edək ki, "Azərbaycan tarixi" və digər ictimai və humanitar yönlü dərsliklərdə, eləcə də "Məktəbli gündəlik"lərində Azərbaycanın tarixi qələbəsini əks etdirən kifayət qədər maraqlı məlumatlar, fotoşəkilər əks olunub. Doğurudan da, dərsliklərimizdə Zəfər tarixinin əks olunması, eləcə də məktəblərimizdə ayrı-ayrı şəhidlərimizin adlarına xüsusi siniflərin yaradılması, onların doğum və şəhidlik günlərinin keçirilməsi, əhəmiyyətli tədbirlərin keçirilməsi təqdirəlayiqdir. Əlbəttə, gələcəyimiz olan şagirdlərimizin qanına, iliyinə qədər vətənpərvər olması, onların bu ruhda yetişməsi vacibdir. Çünki onlar bu ruhda tərbiyə olunsalar gələcəkdə Zəfər tariximizlə qürur duyacaqlar, şəhidlərimizi, qəhrəmanlarımızı unutmayacaqlar və torpaqlarımızın ərazi bütövlüyünü göz bəbəkləri kimi qoruyacaqlar. Biz tariximizi yaradanlara qiymət verməliyik ki, gələcəyimiz daha da işıqlı olsun!

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**